## AZƏRBAYCAN KİNOSU 120:

# tarixi, bu günü və gələcək inkişaf perspektivləri




### Bu kino ki, var...

"Ayə, ay camaat, bu kino ki, var, bu çox qəliz məsələdir, Həm qəlizdir, həm də ki, vacib. Bax, bu kino zəhmətkeşləri durub oradan gəliblər bizim yanımıza. Ə, gəliblər bizi çəksinlər kinoya. Bizim də borcumuz əlimizdən gələni onlardan əsirgəməməkdir."

Yazıma XX əsr Azərbaycan kino sənətinin gözəl nümunələrindən olan "Bəyin oğurlanması" bədii filmindən mərhum Xalq artisti Səməndər Rzayevin dilindən səslənən bu epizodla başlamağım təsadüfi deyil. Həqiqətən də bu gün əksəriyyətimizin kinoteatrlardan, televiziya ekranlarından, internet resurslarından maraqla izlədiyimiz, lakin yaranma ideyası, istehsal prosesi və digər məziyyətləri haqqında o qədər məlumatlı olmadığımız kino böyük sənətkarımızın obrazlı şəkildə ifadə etdiyi kimi, "həm qəlizdir, həm də ki, vacib". Qəlizdir ki, ona görə ki, hər hansı bir tarixi dövrdə baş vermiş hadisələrin xronikasını yaratmaq, həmin hadisələrin müsbət və mənfi qəhrəmanlarının obrazlarını canlandırmaq, ən başlıcası gərgin zəhmət bahasına ərsəyə gətirilən ekran əsərlərini tamaşaçılara sevdirmək bu prosesdə iştirak edən texniki personaldan tutmuş yardıcı kollektivədək hər bir insandan böyük istedad və bacarıq tələb edir. Bu gün istənilən kino əsərini ekranlaşdırmaq üçün ən müasir texniki vasitələrin, mütəxəssislərin, yaradıcı kollektivlərin mövcudluğu şəraitində belə əgər bu proses yenə də qəliz olaraq qalırsa, gəlin etiraf edək ki, artıq 120 illik yubileyini qeyd etməyə hazırlaşdığımız Azərbaycan kinosunun yarandığı dövrdə bu məsələ bəlkə də 100 qat çətin və qəliz idi.

İncəsənətin bu növünün vacibliyinə gəldikdə isə, dünya kino sənətini bir kənara qoyub yalnız zəngin tarixi keçmişə malik olan Azərbaycan kinosunun keçdiyi 120 illik tarixə qısaca nəzər yetirsək, onun "həyata vəsiqə aldığı" vaxtdan indiyədək insanların zövqünün formalaşmasında, hər bir xalqın tarixi keçmişinin, bu gününün və gələcəyinin gözlərimiz önündə canlandırılmasında necə böyük əhəmiyyət kəsb etməsinin şahidi olarıq.

### "Bibiheybətdə neft fontanı yanğını"ından başlanan yol

Azərbaycanda kino sənətinin yaranmasının çox maraqlı tarixçəsi var. Bu məsələyə toxunmamışdan öncə qeyd edək ki, XIX əsrin sonlarına doğru Bakıda neft bumunun yaşanması, xüsusilə müxtəlif ölkələrindən bu diyara "neft iyinə" gələnlər özləri ilə həm də o dövrdə dünya mədəniyyətinin və incəsənətinin ən gözəl nümunələrini gətirirdilər. Bu nöqteyi-nəzərdən o vaxtlar dünya kino tarixində birinci olaraq Fransada keçirilmiş ilk kinoseansdan düz iki il sonra - 1898-ci il avqustun 2-də Bakı elmi-foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mişonun özünün lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərini nümayiş etdirməsi "Neft və milyonlar səltənəti"nin mədəni həyatında təsadüfi hadisə sayıla bilməzdi. Məhz bu xronikal sənədli və bədii süjetlərin nümayişi ilə bu gün özünün intibah dövrünü yaşamaqda olan Azərbaycan kino sənətinin əsası qoyuldu.

Elə bu səbəbdən də ümummilli lider Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli Sərəncamı ilə "Bibiheybətdə neft fontanı yanğını" xronikal sənədli filminin nümayiş etdirildiyi gün, yəni avqustun 2-si ölkəmizdə kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü kimi qeyd olunur.

### Yaranma tarixi üç dəfə dəyişdirilən milli kino sənətimiz

Maraqlıdır ki, Ulu Öndərin sözügedən Sərəncamınadək Azərbaycan kinosunun tarixi iki dəfə dəyişdirilib. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra SSRİ kinosu günü həm də Azərbaycan kinosu günü kimi qeyd olunurdu. Bu tarix Leninin kinematoqrafiya müəssisələrinin milliləşdirilməsi ilə əlaqədar dekreti ilə bağlı idi və həmin günün digər müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da kino günü kimi qeyd edilməsi bir növ təbii idi. Lakin 1976-cı ildə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin atdığı cəsarətli addım ortaya yeni bir reallıq çıxardı.

"Bəlkə demək istəyirsiniz ki, Azərbaycan kinosunun tarixi rus kinosunun tarixindən də qədimdir?"

Kişiyə telefonda nə dedilərsə, çox əsəbiləşdi və dəstəyi yerinə qoydu. Həsən Seyidbəyli soruşdu: "Nə oldu Sizə?". Cavab verdi ki, "görmürsən, mən buna fikrimizi deyirəm, o isə cavab verir ki, bəlkə demək istəyirsiniz ki, Azərbaycan kinosunun tarixi rus kinosunun tarixindən də qədimdir?" Məmməd Qurbanovun sözləri indi də qulağımdadır: "Ümidimiz qalır Heydər Əliyevə". O, ətraflı arayış hazırlayıb Azərbaycan KPMK-ya təqdim etdi. Milli kinomuzun hamisi və böyük təəssübkeşi, ulu öndər Heydər Əliyev müraciətə baxan kimi göstəriş verdi ki, dekabr ayına kimi qəzetlər, televiziya və radio bu haqda məlumatlar yaysınlar.

Heydər Əliyev: Bizim tədqiqatçılarımız bir az dərinə getsələr, bəlkə də bizim kino tariximiz daha qədimdir.

Tanınmış kino tədqiqatçısı, Əməkdar incəsənət xadimi Aydın Kazımzadə xatırlayır ki, beləcə indiki Heydər Əliyev Sarayında təntənəli bir yubiley tədbiri keçirildi. Azərbaycan kinosunun bütün salnaməsinin əks olunduğu nəhəng bir stend düzəldilmişdi. Kino işçilərinə fəxri adlar, mükafatlar verildi. "Bundan sonra başladıq iki yubiley qeyd etməyə: sovet kinosu gününü, may ayında isə Azərbaycan kinosu gününü. Ulu Öndər o vaxt böyük uzaqgörənliklə Məmməd Qurbanova demişdi ki, bizim tədqiqatçılarımız bir az dərinə getsələr, bəlkə də bizim kino tariximiz daha qədimdir. Məmməd müəllim bu sözləri deyəndə düşündüm ki, bu sözlər elə-belə deyilməyib. Axı, Azərbaycanda iki neft bumu olmuşdu: biri XIX əsrin ortalarında, digəri isə həmin əsrin sonlarında. Neftlə bağlı bütün dünyanın gözü burada olub. Əgər hər yandan insanlar gəlib burada çalışıb, pul qazanıblarsa, çox güman ki, kino da olub. Aleksandr Mixaloviç Mişonun da adı çəkilirdi. Ona görə də onun izinə düşdüm. O, Bakıda süjetlər çəkib, pul qazanıb, gedib. Bir ildən çox arxivdə, kitabxanalarda tədqiqat apardım. Məlum oldu ki, Mişon Xarkovdandır, bum olan vaxtı gəlib Bakıya. Bakıda laboratoriya kimi istifadə etdiyi yeri də tapdım. İlk dəfə filmləri nümayiş etdirdiyi yeri də tapmışam. 1898-ci ildə "Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Şəhər bağında xalq gəzintisi", "Bazarnı" küçəsi sübh çağı" filmləri çəkilib. Ayaz Salayev Dövlət Film Fondunda işləyəndə bu filmlərin siyahısını ona verdim ki, Fransaya gedəndə arxivlərə baxsın, bəlkə həmin filmlər orada var? Və həmin filmlərin ikisi tapıldı. Dərinə getsələr bəlkə də Londonda, Amerikada başqa yerlərdə də var."

### "Azərbaycanfilm" Kinostudiyası-milli kino sənətimizin məbədi

Bü gün müasir müstəqil Azərbaycanda milli kino sənətinin məbədi sayılan "Azərbaycanfilm" Kinostudiyasında indiyədək iki mindən çox müxtəlif növ və janrda film istehsal olunub. Onların bir hissəsi beynəlxalq və digər kinofestivalların mötəbər mükafatlarına layiq görülüb.

Son illərdə ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində mədəniyyət və incəsənətimizin bütün sahələri ilə yanaşı, kino sənayemiz də sürətli inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyevin "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 23 fevral tarixli Sərəncamı milli kinomuzun maddi-texniki bazasının möhkəmləndirilməsinə yeni təkan verib. Eyni zamanda dövlətimizin başçısının müvafiq Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" hazırda uğurla icra olunmaqdadır.

Dövlətimizin gündəlik diqqət və qayğısı ilə əhatə olunan "Azərbaycanfilm" Kinostudiyası tərəfindən təkcə son iki ildə istehsal olunub ekranlara buraxılan bədii və sənədli filmlərin kəmiyyət və keyfiyyət göstəriciləri ölkəmizdə kino sənayesinin inkişafı sahəsində böyük uğurlara imza atıldığını bir daha sübut edir.

### Azərbaycan filmləri beynəlxalq festivallarda

"Azərbaycanfilm" Kinostudiyası 2017-ci ildə də beynəlxalq fəaliyyətini uğurla davam etdirib. Filmlərimiz onlarla beynəlxalq festivallarda nümayiş olunub, müxtəlif nominasiyalara təqdim edilib, bir sıra mükafatlara layiq görülüb. "Qırmızı bağ" filmi Rusiyada "MDB və Baltikyanı ölkələrin ən yaxşı filmi" kateqoriyasında 30-cu "Nika" mükafatına nominant elan olunub. Bu ekran əsəri, həmçinin Dəkkə Beynəlxalq Film Festivalında "Ən yaxşı bədii mənəvi film" mükafatı ilə təltif olunub. "İçərişəhər" 5 ay müddətində Hindistanın beynəlxalq film festivalları çərçivəsində müxtəlif şəhərlərində nümayiş etdirilib. Bu siyahıya Hindistanda keçirilən dünyanın ən nüfuzlu festivalları sırasında olan Qoadakı Hindistan BFF və Kerala film festivalı daxildir. "İçərişəhər", həmçinin ABŞ-da keçirilən "WorldFest Hyuston" film festivalının Qızıl Remi mükafatı ilə təltif olunub.

Diqqətəlayiq haldır ki, "Nar bağı" filmi artıq beynəlxalq film festivallarında müsabiqə proqramlarında yer alır. Filmin dünya premyerası Çexiyanın "Karlovı Varı" Beynəlxalq Film Festivalında keçirilib. Film 13-cü Avrasiya Beynəlxalq Film Festivalının əsas müsabiqə proqramında nümayiş olunub və mükafatlara layiq görülüb. Aktyor Qurban İsmayılov "Ən yaxşı kişi rolu" mükafatına, film isə "Münsiflər heyətinin xüsusi mükafatı" və FIPRESCI (Beynəlxalq Kinotənqidçilər Federasiyası) tərəfindən "Xüsusi vurğulama"ya layiq görülüb. Bundan əlavə, "Nar bağı" filmi 11-ci "Asia Pacific Screen Awards" (APSA) mükafatına namizədlərin siyahısında yer alıb.

### Bəs perspektiv vəzifələr nələr vəd edir?

Mübaliğəsiz demək olar ki, Azərbaycanın ən yeni tarixinə əlamətdar yubileylər ili kimi daxil olacaq 2018-ci ildə yaranmasının 120-ci ildönümünü bayram edən Azərbaycan kino sənətini perspektivdə daha böyük uğurlar gözləyir. Bunu Prezident İlham Əliyevin "Azərbaycan kinosunun 120 illiyinin qeyd edilməsi haqqında" 31 yanvar 2018-ci il tarixli Sərəncamında qarşıya qoyulan vəzifələrdən aydın görmək mümkündür. Sərəncamda ölkənin mədəni həyatında mühüm hadisə olan kino sənətimizin 120 ildə keçdiyi yola qısa nəzər salınmaqla yanaşı, ölkə kinematoqrafiyasının qarşısında duran mühüm vəzifələr də əksini tapmışdır. Şübhə yoxdur ki, yaranmasından keçən 120 ildə hər bir tarixi mərhələnin tam mənzərəsini yaratmağa səy göstərən milli kinematoqrafiyamız özünün zəngin ənənələrini davam etdirərək gələcəkdə daha böyük uğurlar qazanacaqdır.

**Nüsrət Məmmədov, *"İki sahil"***

Yazı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.

## Məntiq Olimpiadasının qalibləri mükafatlandırılıb



Ötən gün "Veysəloğlu" şirkətlər qrupunun baş sponsorluğu, Xəzər Universitetinin akademik tərəfdaşlığı, Kainat Tədris Mərkəzi və ATGTİ-nin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunan III Tələbələrarası Məntiq Olimpiadasının qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə "Veysəloğlu" şirkətlər qrupunun biznesə dəstək üzrə baş direktoru İlqar Nuri, Xəzər Universitetinin professoru Fuad Rəsulov, ATGTİ-nin Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Ramin Həbibzadə və Kainat Tədris Mərkəzinin direktoru İlqar Ağakişiyev və olimpiadanın iştirakçısı olmuş tələbələr iştirak ediblər.

Mükafatlandırma mərasimində Dövlət Himninin səsləndirilməsindən sonra olimpiadanın gedişi və qaliblərdən bəhs edən videoçarx nümayiş olunub.

Qalibləri təbrik edən "Veysəloğlu" şirkətlər qrupunun biznesə dəstək üzrə baş direktoru İlqar Nuri məntiq olimpiadasının əhəmiyyətindən söhbət açıb, iştirakçılara həm təhsillərində, həm də gələcək işlərində müvəffəqiyyətlər arzu edib.

Tədbirin sonunda III Tələbələrarası Məntiq Olimpiadasının qalibləri mükafatlandırılıb. Belə ki, ilk onluğu tutan tələbələrə sertifikat, "Teas Press" Nəşriyyat evindən bestseller kitablar, planşet, noutbuk və 1-ci yerin sahibinə "Veysəloğlu" tərəfindən mobil telefon təqdim olunub, Xəzər Universitetindən isə 2 illik ödənişsiz MBA təhsili almaq şansı qazanıblar.

Xatırladaq ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunan III Tələbələrarası Məntiq Olimpiadası Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Xəzər Universiteti, Sumqayıt Dövlət Universiteti və Azərbaycan Texnologiya Universitetinin inzibati binasında keçirilmişdi. Birinci mərhələdə ümumilikdə 3177 tələbə iştirak etmiş və final mərhələsinə 200 nəfər vəsiqə qazanmışdı.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

## Əhəd Canəhmədov Rusiyanın Əməkdar Mühəndisi fəxri adına layiq görülüb

Azərbaycan Milli Aviasiya Akademiyasının nəqliyyat mexanikası kafedrasının müdiri, Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti Əhəd Canəhmədov Rusiyanın Əməkdar Mühəndisi fəxri adına layiq görülüb.

AZƏRTAC xəbər verir ki, o bu ada elm və təhsildəki uğurlarına, mühəndislik elminin inkişafındakı xidmətlərinə, tribologiya sahəsində elmi kəşfinə, yeni texnologiyaların işlənməsi və tətbiqindəki yüksək nəticələrə, peşəkar mühəndis kadrlarının hazırlanmasında, böyük layihələrin reallaşdırılmasında fəal iştirakına və dövlətlərarası elmi-texniki əlaqələrin inkişafındakı xidmətlərinə görə layiq görülüb.

Əhəd Canəhmədov 400-ə yaxın elmi əsərin, o cümlədən elmi kəşflərin, 10-dan çox monoqrafiya, Azərbaycan, rus və ingilis dillərində nəşr olunmuş elmi - kütləvi kitabların müəllifidir. O, bir sıra xarici ölkə akademiyalarının həqiqi üzvüdür.

Alimin bu yaxınlarda işıq üzü görən "Mühəndislik fəlsəfəsi" elmi-fəlsəfi traktatı cəmiyyətdə ona daha böyük rəğbət qazandırıb. Əsər onun uzun illərin elmi-fəlsəfi düşüncələrinin məhsuludur. O, elmi-kütləvi əsəri üçün traktat janrını seçərək, fəlsəfi təlimi yeni yanaşmadan - mühəndislik fəlsəfəsi mövqeyindən kütləviləşdirmək məqsədilə oxucuya Məkan - Zaman və Yaranış haqqında qeyri-adi düşüncələrini çatdırır. Onun elmi-fəlsəfi düşüncələri bir sıra bazis fəlsəfi anlayışları- məkan, zaman, insan, həyat və ölüm, insanın kainatda yeri, insan fəaliyyətinin ali düşüncə formalarını özündə əks etdirir.